KREDO
№ 03 (1297) 16 yanvar 2026-cı il

# ZƏRDABİ YOLUNUN FƏDAKARI

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 fevral 2025-ci il tarixli fərmanı ilə təsis edilmiş medal media sahəsinin inkişafına xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə təqdim edilir...*






*Hörmətli Əli Rza Xələfli!*

Sizi "Azərbaycan mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı ilə təltif olunmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Sizin uzun illər ərzində yazıçı, publisist və şair kimi Azərbaycan ədəbiyyatına və mətbuatına verdiyiniz dəyərli töhfələr bu mükafata layiq görülməyinizin ən gözəl sübutudur. Qələminizin gücü və sözünüzün dəyəri daim işıq saçsın. Sizə uzun ömür möhkəm


AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
M № 0542
Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun 2025-ci il 30 oktyabr tarixli İ-020 nömrəli əmrilə

Əzizli
Əlirza
Zal oğlu
"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir.
Əhməd İsmayılov

can sağlığı, yaradıcılıq uğurları və yeni-yeni nailiyyətlər arzulayıram!

"Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüşdür. 1980-ci illərin əvvəlindən mətbuatda çalışır. 1980-1993-cü illərdə rayon qəzetində müxtəlif vəzifələrdə çalışdı. "Xudafərin", "Qoşa qanad", "Qarabağ" və "Həyat" qəzetlərində xüsusi müxbir, şöbə müxbir, şöbə müdiri və redaktor əvəzi vəzifələrin işləmişdir.

Əli Rza Xələfli Kredo qəzetinin baş redaktoru, (1999-cu ildən), Azərbaycan yazıçılar Birliyinin üzvü, yazıçı-publisist, şair. Ə.Xələflinin ədəbi-publisistik yazıları və şeirləri dövrü mətbuatda müntəzəm çap olunur.

2002-ci ildə "Qızıl qələm" medalı mükafatına, 2003-cü ildə "Məmməd Araz"ali ədəbi mükafatına, 2004-cü ildə Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliq Bürosunun "Qılınc və qələm" yaddaş mükafatı, 2008-ci ildə Beynəlxalq Rəsul Rza mükafatına, 2010-cu ildə Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatına layiq görülmüşdür.

2002-ci ildə Əli Rza müəllim Azərbaycan Yazıçıları və 1984-cü ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü, 1980-ci ildən Qabaqcıl maarif xadimi, 2010-cu ildə isə Prezident təqaüdçüsüdür.

Şair-publisist Əli Rza Xələflinin zəngin və əhatəli yaradıcılığı ən müxtəlif istiqamətlərdə ədəbiyyatşünaslarımız, tənqidçilərimiz, publisistlərimiz, ümumiyyətlə, müasirlərimiz tərəfindən ardıcıl və əsaslı tədqiq olunmaqdadır. İndiyə qədər Xələfli yaradıcılığının publisistik və monoqrafik tədqiqatına həsr olunmuş 10-dan çox kitab nəşr olunub. Və 70 -ə yaxın kitabın müəllifidir. Professor Abbas Hacıyevin "Sənətin işığında", filosof-tənqidçi Sabir Bəşirovun "Əli Rza Xələfli - ədəbi yol, əbədi yol", professor Mədət Çobanov və Müşfiq Çobanlının "Xələflinin yaradıcılıq yolu", yazıçı-publisist Nəriman Mahmudun "Heyrətin çağırışı", professor Yədulla Ağazadənin "Pirlər bulağından novatorluğa" və digər əsərlərdə müəlliflər Xələfli yaradıcılığının həyata çağıran motivlərini elmi-nəzəri düşüncədən keçirərək oxuculara təqdim etmişlər.

Çoxsaylı tədqiqat əsərləri Əli Rza Xələflinin poeziyası və publisistikasının insan mənəviyyatının dərinliklərinə nüfuzetmə gücünü göstərir. Beləliklə, o, həyatı bədii sənətə gətirmək baxımından çox dəyərli bir irsin yaradıcısıdır.

*Ceyhun ZALLI*

